# Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Gəncə filialı fəaliyyətə başladı





Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Gəncədə yeni filialının açılışı olub. Gəncə şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən açılış mərasimində bildirildi ki, filialda Gəncə və ətraf rayonlarda yaşayan sakinlərə yüksək səviyyədə səhiyyə xidməti göstərmək üçün hər cür şərait yaradılmış, ən müasir tibbi avadanlıqlarla təmin edilmişdir.

Açılış mərasimindən sonra Heydər Əliyev Mərkəzində milli oftalmologiya elminin inkişafı və perspektivlərinə həsr olunan elmi-nəzəri konfrans keçirilmişdir. Konfransda akademik Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilmişdir. Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev çıxış edərək Milli Oftalmologiya Mərkəzinin Gəncə filialının açılışını əlamətdar hadisə adlandırmışdır. Konfransda Milli Oftalmologiya Mərkəzinin direktoru Elmar Qasımov, N.İ.Piroqov adına Rusiya Dövlət Tibb Universitetinin Oftalmologiya kafedrasının professoru Aleksey Yeqorov, həmin kafedranın dosenti Dmitri Kats, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin bölmə rəhbəri Müşfiq Kərimov və başqaları müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***